

## Şöhlət ƏFŞAR

Amansız ölüm qələm yoldaşımız Şöhlət Əfşarı aramızdan apardı.

Şöhlət Əfşar (Axundov Şöhlət Əşrəf oğlu) 1949-cu ildə Ağcabədi rayonunun Avşar kəndində anadan olmuşdur. 1967-ci ildə Ağcabədi rayonunun Avşar kənd Nizami adına orta məktəbinin XI sinfini bitirmişdir. 1968-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun aqronomluq fakültəsinin qiyabi şöbəsinə daxil olmuşdur. 1975-ci ildə ali təhsilini tamamlayıb aqronom ixtisasına yiyələnmişdir. 1998-ci ildə göndərişlə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının inzibati idarəetmə fakültəsinə daxil olub, 2002-ci ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirmişdir.1973- 2006-cı illərdə Ağcabədi rayonunda dövlət orqanlarında və təsərrüfat sahəsində bir sıra rəhbər vəzifələrdə işləmişdir. 2006-cı ildən 2011-ci ilə kimi "Vəfa" jurnalında əməkdaş və redaksiya heyətinin üzvü, "Zamanın nəbzi" ictimai-siyasi qəzetinın baş redaktoru, 2011-ci ildən həmin qəzetin təsisçisi və baş redaktoru, 2014-cü ildən ömrünün sonuna kimi "Uvertüra" ictimai-siyasi və ədəbi qəzetinin təsisçisi və baş redaktoru kimi fəaliyyət göstərmişdir. 1973-cü ildən etibarən Ağcabədi rayonunda nəşr olunan "Aran" (əvvəllər "Sürət") qəzetində vaxtaşırı publisistik məqalələrlə çıxış etmişdir. 1994-cü ildən başlayaraq respublikanın aparıcı mətbuatında müxtəlif publisistik yazıları, hekayələri, novellaları, şeirləri və poemaları çap olunmuşdur. 2017-ci ildə Türkiyənin Kayseri şəhərində Türk Birliyi Qurultayı Aqsaqqallar Heyətinə üzv seçilmişdir. "Sükutdan asılmışam", "Dodaqdan könüllərə", "Muğamın sədası", "Həyat sən öyrədən deyil, müəllim", "Bu dünyanın havasına oynama","Poema-Trilogiya" adlı kitabların müəllifidir. Hərbi-vətənpərvərlik mövzusunda qələmə aldığı şeirlərinə çox sayda mahnı yazılmışdır. Təbrizdə şeirlərinin diski çıxmışdır.

İstedadlı şair, səmimi, təvazökar insan Şöhlət Əfşarın işıqlı xatirəsi qələm yoldaşlarının qəlbində yaşayacaq.

**Allah rəhmət eləsin!**

***Azərbaycan Yazıçılar Birliyi***

**Ədəbiyyat qəzeti.- 12 fevral.- 2022- ci il.- S. 32.**